

**Müsahibimiz tanınmış mədəniyyət işçisi, Astara Rayon Mərkəzi Mədəniyyət Evinin bədii rəhbəri, "Sevinc" xalq çalğı alətləri ansamblının rəhbəri Cəlal Mədətzadədir.**

# Gənclik həvəsi ilə

**Mədətzadə Cəlal Abdulla oğlu 1949-cu ildə Astarada anadan olmuş, 1966-cı ildə Sabir adına məktəbi bitirmişdir. O, 1962-63-cü illərdə Rayon Pionerlər Evində (indiki Uşaq Yaradıcılıq Mərkəzi) qarmon, nağara, rəqs dərnəyinin rəhbəri kimi əmək fəaliyyətinə başlamışdır.**

1964-65-ci illərdə məktəblilərin Respublika baxış müsabiqələrində, olimpiadalarında, festivallarda iştirak etmiş və dəfələrlə qalib adını qazanmışdır. Cəlal Mədətzadə Əhməd Cavad adına Bakı Mədəni-Maarif Texnikumunu fərqlənmə diplomu ilə bitirmişdir. Bakıda oxuduğu illərdə (1967-1971) 1 saylı Tibb Texnikumunda, "Təranə" gənclik ansamblında, Suraxanı mədəniyyət sarayında və Leytenant Şmitd adına (indiki Səttarxan) zavodun rəqs ansamblında fəaliyyət göstərmişdir.

Bu rəqs kollektivi ilə birlikdə Moskva, Rostov, Sankt-Peterburq, Odessa, Quriyev, Həştərxan və Krasnovodsk şəhərlərində konsertlər vermişdir. 1974-cü ildə onun hazırladığı kollektiv Respublikamızın paytaxtı Bakı şəhərində internat məktəbləri üzrə keçirilən olimpiadada III dərəcəli diploma layiq görülmüşdür.

Cəlal Mədətzadə 1979-cu ilin iyun ayında əsrin nəhəng tikintisi olan Baykal-Amur magistralında, Uskutda, Ulkanda, Zvyozianida, Magistralda, Tindada və Bratskda da uğurlu çıxışlarına görə fəxri fərmanlarla təltif olunmuşdur. Kənd zəhmətkeşlərinə nümunəvi xidmətlərinə görə 1981-ci ildə Kənd Təsərrüfatı işçiləri Həmkarlar İttifaqı Azərbaycan Respublika Komitəsinin fəxri fərmanı və qiymətli hədiyyələrlə təltif edilmişdir.

1984-cü ilin payızında isə Moskvada keçirilən tədbirlərdə Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin diplomuna və medalına layiq görülmüşdür. Paytaxtda keçirilən XXIX, XXX, XXXI qurultaylarda, III Respublika Mahnı və Rəqs Bayramlarında, Gənclər Forumunda, möhtərəm Prezident Heydər Əliyevin 1993-cü və 1998-ci ildə andiçmə mərasimində, Qurtuluş, Dirçəliş bayramlarında və Novruz şənliklərində, nəhayət 2003-cü ildə ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olan hörmətli Prezidentimiz İlham Əliyevin andiçmə mərasimində rəngarəng konsert proqramı ilə çıxış etmişdir.

1993-95-ci illərdə rəhbərlik etdiyi "Sevinc" xalq çalğı alətləri ansamblı ilə birlikdə qardaş Türkiyənin Ankara və İstanbul şəhərlərində keçirilən Dostluq və Qardaşlıq festivalında, Rumıniyada və Dağıstanda uğurlu çıxışlar etmiş və Azərbaycan musiqisini və mədəniyyətini layiqincə təmsil etmişdir.

Səhnə fəaliyyətində bir çox tanınmış korifey sənətkarları konsertlərdə, yubileylərdə və tədbirlərdə müşayiət etmişdir. Onlardan xalq artistləri Sara Qədimova, Hacıbaba Hüseynov, Canəli Əkbərov, Arif Babayev, Yaqub Məmmədov, Səkinə İsmayılova, Məmmədbağır Bağırzadə, Qəndab Quliyeva, Teymur Mustafayev; artistlərdən Süleyman Abdullayev, Razi Şükürov, Sabir Mirzəyev, Vəliağa Tağıyev ilə birlikdə konsertlərdə çıxış etmişdir. Aşıq sənətkarlardan Aşıq Pənah Pənahov, Aşıq Valeh, Kamil Zülfüqarov və Aşıq Yədulla, ustad sənətkarlardan Manaf, Əliyar və Əliməmməd ilə Astaranın dağ kəndlərində toy şənliklərində, el bayramlarında iştirak etmişdir.

Rayonda keçirilən ənənəvi məhsul bayramlarında, Novruz şənliklərində Respublikanın əməkdar artistləri rəqqas Kamil Dadaşovun, Rafiq Əzizovun, əməkdar mədəniyyət işçiləri Əlikram Aslanovun, Arif Hüseynovun və Cəbrayıl Əliyevin quruluş verdiyi milli rəqslərini, süitalarını məharətlə ifa etmişdir.

2002-2004, 2006-2008, 2010-cu illərdə rayonumuzda keçirilən Uşaq Muğam İfaçılarının Respublika Baxış Müsabiqəsində Azərbaycanın 50-dən çox rayonunun iştirak etdiyi ifaçıları Cəlal Mədətzadənin rəhbərlik etdiyi "Sevinc" xalq çalğı alətləri ansamblı müşayiət etmiş, gənc muğam ifaçılarının aşkara çıxarıl-

masında əmək və zəhmət sərf etmişdir.

2004-cü ildə Cəlal Mədətzadə əlil musiqiçilərin zona və respublika baxış müsabiqəsində iştirak etmiş, Respublika üzrə II dərəcəli diploma və pul mükafatına layiq görülmüşdür.

Vaxtaşırı Cəlal Mədətzadə rayonumuzun sərhəd zastavalarında, Milli Ordunun əsgərləri qarşısında maraqlı və rəngarəng konsert proqramı ilə çıxış edir.

Cəlal Mədətzadə rayonumuzda status almış qaçqın və köçkünlərə, şəhid ailələrinə, I və II qrup əlil olmuş insanlara öz şəxsi hesabına maddi yardım göstərən yeganə mədəniyyət işçisidir.

Müxtəlif illərdə klub müdiri, Çiləkəran kənd mədəniyyət evinin bədii rəhbəri, Kələdəhnə Mədəniyyət Evinin direktoru, Mədəniyyət-İstirahət Parkının direktoru, Şəkil Qalereyasında Baş Fond Mühafizəçisi və Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi kimi vəzifələrdə çalışmışdır.

45 ildən artıqdır ki, ömrünü mədəniyyət və incəsənət sahəsinə həsr etmiş, 15 ildir ki, Rayon Uşaq Musiqi Məktəbində müəllim işləyir. Dəfələrlə Rayon İcra Hakimiyyətinin, Təhsil Şöbəsinin, Təhsil işçiləri Azad Həmkarlar İttifaqının Astara Rayon Komitəsinin fəxri fərmanına, Mədəniyyət Şöbəsi və Azərbaycan Mədəniyyət işçiləri Müstəqil Həmkarlar İttifaqı Astara Rayon Komitəsinin fəxri fərmanına layiq görülmüşdür.

**Hal-hazırda C.Mədətzadə rayon Mərkəzi Mədəniyyət Evinin bədii rəhbəri və "Sevinc" xalq çalğı alətləri ansamblının rəhbəridir. Rayonda istedadların aşkara çıxarılmasında, bacarıqlı musiqiçilərin yetişməsində var qüvvəsini sərf edir.**

**Tural**

